# Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclası keçirilib





**Dekabrın 28-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin iclası keçirilib. Partiyanın şəhər və rayon təşkilatlarının sədrləri iclasda onlayn formatda iştirak ediblər. Bu barədə YAP Mərkəzi Aparatından verilən məlumatda bildirilib.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib.

YAP Mərkəzi Aparatının rəhbəri prezident seçkiləri ilə bağlı partiyanın İdarə Heyətinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq qarşıda duran vəzifələrə toxunaraq gündəlikdə duran məsələləri elan edib.

İclasda ilk olaraq seçkilərlə əlaqədar bir sıra məsələlərə baxılıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzv, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev isə MSK-nın iclaslarını müşahidə edəcək şəxs təyin edilib. Bundan əlavə, səsvermə gününədək dairə seçki komissiyalarında, səsvermə günü Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparacaq şəxslərin, eləcə də səsvermə günü məntəqə seçki komissiyalarında müşahidə aparacaq şəxslərin və dairə və məntəqə seçki komissiyaları üzrə məşvərətçi səs hüquqlu üzvlərin təyin edilməsi barədə qərar qəbul olunub.

Sonra iclasda "Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icrasının yekunlarına dair hesabat müzakirəyə çıxarılıb. Bildirilib ki, "Heydər Əliyev İli" ilə əlaqədar Tədbirlər Planı olduqca zəngin, rəngarəng və çoxşaxəli olub, nəzərdə tutulan bütün tədbirlərin icrası təmin edilib. İdarə Heyətinin üzvləri müzakirələrdən sonra hesabatı təsdiqləyiblər.

Daha sonra iclasda YAP Mərkəzi Aparatının və yerli təşkilatlarının 2024-cü il üçün gəlir-xərc smetaları təsdiq olunub. Eyni zamanda, partiyanın Qobustan, Lerik, Yardımlı, Xızı, Daşkəsən, Xocalı, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Xocavənd təşkilatlarının aparatlarına 2024-cü il üçün təsdiq edilmiş gəlir-xərc smetaları üzrə yaranmış mənfi fərqin qarşılanması məqsədilə dotasiyaların ayrılması və Yeni Azərbaycan Partiyasının cari fəaliyyəti ilə bağlı digər məsələlərə də baxılıb. Müzakirələr zamanı YAP Sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Elmar Qasımov, Elşad Mirbəşiroğlu və Mübariz Qurbanlı məsələlərə münasibət bildirib, müvafiq qərarlar qəbul olunub.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın İdarə Heyətinin üzvlərini qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

**Xaqani KOSAYEV,**
**"Respublika".**